AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU

*Əlyazması hüququnda*

**AYNUR CƏBRAYIL QIZI USUBOVA**

# MƏDƏNİYYƏT SƏRVƏTLƏRİNƏ QARŞI TÖRƏDİLMİŞ ƏMƏLLƏRLƏ MÜBARİZƏNİN CİNAYƏT-HÜQUQİ VƏ KRİMİNOLOJİ PROBLEMLƏRİ

İxtisas: 5611.01 – Cinayət hüququ və kriminologiya;

cəza-icra hüququ

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi

almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2016**

Dissertasiya işi Bakı Dövlət Universitetinin «Cinayət hüququ və kriminologiya» kafedrasında yerinə yetirilmişdir.

**Elmi məsəhətçi**: **Firudin Yusif oğlu Səməndərov**
hüquq üzrə elmlər doktoru, professor,
Azərbaycan Respublikasının əməkdar hüquqşunası

**Rəsmi opponentlər** **Bəhram Saffan oğlu Zahidov**
hüquq üzrə elmlər doktoru, professor

**Bəhmən İlyas oğlu Nazıyev**
hüquq üzrə fəlsəfə doktoru

**Aparıcı təşkilat** **Azərbaycan Respublikasının Ali Məhkəməsi**

Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın müdafiəsi 26 may 2016-cı il tarixdə saat 15:00-da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Hüquq İnstitutunun nəzdində fəaliyyət göstərən FD.01.103 saylı Dissertasiya Şurasının iclasında keçiriləcək.

**Ünvan**: AZ 1143, Bakı şəhəri, Hüseyn Cavid pr. 115, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutu, IX mərtəbə, konfrans zalı.

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat “ ” aprel 2016-cı il tarixdə göndərilmsişdir.

**FD.01.103 Dissertasiya Şurasının**
**elmi katibi, h.ü.f.d., dosent** **X.Ə.BAYRAMZADƏ**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

Bəşəriyyətin tarixi boyu yaratdığı mədəniyyət sərvətləri ümumi mənəviyyatın və mədəniyyətin təşəkkülü və inkişafının əsas cəhətlərini özündə əks etdirir. Hər bir xalqın milli pasportu sayılan mədəniyyət sərvətləri eyni zamanda həmin xalqın və onun məskunlaşdığı diyarın zəngin uzaq keçmişini təsdiq edir, onun etnogenezisi və multikultural dəyərlərə münasibəti haqqında etibarlı informasiyanın əldə olunmasına imkan verir. Maddi və qeyri-maddi mədəniyyət şəklində təzahür edən mədəniyyət sərvətləri xalqların və dövlətlərin mədəni həyatının müxtəlif tərəflərini, inkişafının xüsusiyyətlərini əks etdirir.

Çoxəsrlik tarixə malik Azərbaycan maddi mədəniyyət nümunələri və sərvətləri ilə zəngin olan bir ölkədir. 1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikasında mədəni irsin, sərvətlərin, abidələrin qorunması və öyrənilməsi sahəsində xeyli işlər görülmüşdür. Azərbaycan dövlətçiliyini məhv olma təhlükəsindən xilas etmiş ulu öndər H.Ə.Əliyevin hakimiyyətə qayıdışından sonra ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında olduğu kimi, mədəni həyatında da geniş miqyaslı işlərin görülməsinə başlanılmışdır. Ulu öndərin bilavasitə rəhbərliyi altına hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası 12 noyabr 1995-ci il tarixdə Azərbaycan xalqının ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir. Konstitusiyanın 40-cı maddəsinə əsasən hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır. Maddədə eyni zamanda qeyd edilir ki, hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır. Konstitusiyanın 77-ci maddəsində də tarix və mədəniyyət abidələrini qorumağın hər bir şəxsin borcu olması təsbit olunmuşdur.

Əsası ulu öndər H.Ə.Əliyev tərəfindən qoyulmuş mədəni irsə diqqət və qayğı ilə yanaşma siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfinfən də uğurla davam etdirilir. Dövlət başçısı tarix və mədəniyyət abidələrinin mühafizəsi və tədqiqi istiqamətində əməli tədbirlərin həyata keçirilməsinə imkan verən qanunvericilik bazasının formalaşdırılması ilə yanaşı,

təşkilati tədbirlərin həyata keçirilməsi istiqamətində də xeyli işlər görmüşdür. Ötən müddət ərzində Aərbaycan Respublikasının “Mədəniyyət haqqında” 6 fevral 1998-ci il tarixli Qanunu, bu qanuna uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 oktyabr tarixli 204 nömrəli qərarı ilə təsdiq edilmiş “Milli mədəniyyət sərvətlərinin mühafizə Qaydaları”, “Milli mədəniyyət sərvətlərindən istifadə Qaydaları”, “Milli mədəniyyət sərvətlərinin Azərbaycan Respublikasından kənara çıxarılması Qaydaları”, 12 avqust 1999-cu il tarixli 130 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinin milli mədəniyyət əmlakının Dövlət Siyahısında və mədəniyyət sərvətlərinin mühafizə siyahısında qeydə alınması Qaydası”, “Mədəniyyət haqqında” Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanunu, bu qanuna uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 avqust 2014-cü il tarixli 293 nömrəli qərarı ilə təsdiq olunmuş "Sərgi, qastrol səfərləri, bərpa işləri, təqdimat, beynəlxalq mədəniyyət tədbirlərinin keçirilməsi ilə əlaqədar mədəni sərvətlərin müvəqqəti ixracı Qaydası", 2015-ci il 14 iyul tarixli 266 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında mədəni irs nümunələrinin qorunması, bərpası və istifadəsi Qaydası”, 2016-cı il 3 fevral tarixli 27 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazi sularında sualtı mədəni sərvətlərin sualtı mədəni irs nümunələrinə aid edilməsi Qaydası”, “Sualtı mədəni irs nümunələrindən istifadə Qaydası” və sair zəruri normativ sənədlər qəbul olunmuşdur.

Dövlət başçısının 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə “Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı” təsdiq olunmuşdur. Ölkəmizin ərazisində dövlət mühafizəsinə alınmış daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcəsinə görə bölgüsü təsdiq edilmiş, yeni aşkar olunmuş abidələrin vaxtaşırı olaraq bu siyahıya əlavə olunmasi işi aparılır. Hazırda ölkəmizin ərazisində 27 dövlət tarix-mədəniyyət, memarlıq, bədii və etnoqrafiya qoruğu mövcuddur, 6308 tarix və mədəniyyət abidəsi dövlət mühafizəsinə alınmışdır.

Lakin bu, bir faktdır və beynəlxalq ictimaiyyətə də məlumdur ki, 1988-ci ildən Ermənistan Respublikasının ərazisində Azərbaycan xalqına məxsus 120 tarixi abidə, 230 məscid, pir, ocaq və məbədlər dağıdılmış, abidələrlə zəngin olan 670 qəbiristanlıq şumlanaraq məhv edilmişdir. Yerevan ərazisində Şərq memarlığının incilərindən sayılan və XIX əsrdə, XX əsrin əvvəllərində tədqiqatçılar tərəfindən müfəssəl təsvir edilmiş 12 məscid, 30-dan çox ziyarətgah, yüzlərlə tarixi əhəmiyyətli qəbiristanlıq yerli-dibli məhv olunmuşdur. Ermənistanın Dərələyəz mahalının Keşişkənd rayonunun Ələyəz kəndində XII əsrə aid Əxi Təvəkkül zaviyəsi, Artik rayonundakı XIII əsrin əvvəllərinə aid Qıpçaq məbədi, ümumən, Ermənistan ərazisində mövcud olmuş yüzlərlə Azərbaycan mənşəli abidə ya tamam darmadağın edilmiş, ya da erməniləşdirilmişdir.

Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun (Kəlbəcər, Laçın, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) ərazisində Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarix və mədəniyyət abidəsi - 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 223 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidəsi, arxeoloji qazıntılar zamanı aşkar edilmiş, müxtəlif dövrlərə aid ümumdünya əhəmiyyətli 100 mindən artıq unikal əşyalar, XI-XIX əsrlərə aid qiymətli və nadir eksponatları olan 22 muzey qarət edilmiş, dağıdılmış və yandırılmışdır.

Respublikamızın işğal olunmuş ərazilərində ermənilər tərəfindən arxeoloji qazıntılar aparılaraq mədəni irsimizə aid tarixi nümunələr mənimsənilir. İşğal altında olan Ağdam rayonunun Boyəhmədli kəndindəki 2 min yaşlı daş insan heykəli, zəbt olunmuş Füzuli rayonunda yerləşən, Avropada insanın ilk yaşayış məskənlərindən sayılan qədim Azıx mağarası, indiki Ermənistan ərazisindəki Meğri rayonunun Nüvədi kəndindəki eramızdan əvvəl birinci minilliyə aid Azərbaycan daş kitabələri, Ermənistanın Sisyan rayonunda qədimlərdən ta 1988-ci ilə qədər yalnız azərbaycanlıların yaşadığı Urud kəndindəki erkən orta əsrlərə aid daş heykəllər və fiqurlar, habelə onlarca belə qiymətli abidələr, yaşına,

əhəmiyyətinə görə çoxdan bir xalqa mənsub olmaq çərçivəsindən çıxmış, başər sivilizasiyasının inciləri sırasına düşmüş və təəssüflər ki, ermənilər bu əvəzsiz sənət nümunələrinə təcavüz etməkdən də çəkinməmişlər. 1994-1996-cı illərdə aparılmış qiymətləndirməyə görə işğal nəticəsində Azərbaycan Respublikasına 23 trilyon 680 milyon manat və ya 6 milyard 71 milyon ABŞ dolları məbləğində zərər vurulmuşdur ki, bunun da böyük hissəsi mədəniyyət və tarix abidələrinin payına düşür.[1]

Təəssüf doğuran acı hal həm də ondan ibarətdir ki, işğal altında olmayan bəzi ərazilərimizdə də dövlət orqanlarının müvafiq vəzifəli şəxslərinin bəzən bilə-bilə, bəzən isə səhlənkar fəaliyyətləri nəticəsində mədəni irsimizə aid sərvətlərimiz dağıntılara, məhvə məruz qalır. Belə ki, əsrlərin sınağından çıxa bilmiş, təbii-nexnogen təsirlərə məruz qalaraq qəza vəziyyətinə düşsə də, məhv olmamış bəzi tarix və mədəniyyət abidələrində hələ də müvafiq konservasiya və bərpa işləri aparılmır, görülən işlər bəzən lazımi keyfiyyətdə aparılmır, ya da mədəni irs nümunələrimizin aşkar surətdə məhvinə yol verilir. 1969-cu ildən dövlət tarix-memarlıq qoruğu elan edilmiş, UNESCO tərəfindən dünya mədəni irsi siyahısına salınmış “İçəri şəhər” qoruğunun tərkib hissəsi olan ayrı-ayrı tarixi binaların sökülməsi heç kim üçün sirr deyildir. Bütün bunlar Azərbaycan xalqının və gələcək nəsillərin yüksək milli ruhda mənəvi inkişafına ciddi maneə yaradır.

Mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlər təkcə dövlətə və cəmiyyətə böyük maddi ziyan vurmur, eyni zamanda Azərbaycan Respublikasının mədəniyyət irsinə ölçüyəgəlməz dərəcədə ziyan yetirir, xalqın mədəniyyət irsinin kasadlaşmasına gətirib çıxarır. Mədəniyyət sərvətlərinin kolleksiyaçılar ilə yanaşı, qanunsuz yolla pul vəsaitləri əldə edən cinayətkar aləmin nümayəndələrinin də

---

[1] Deputat Rafael Hüseynov Avropa Şurasını Ermənistan ərazisindəki tarixi əhəmiyyətli Azərbaycan mədəniyyət abidələrini qorumağa çağırır / http://azertag.az/xeber/DEPUTAT_RAFAEL_HUSEYNOV_AVROPA_SURASINI_ERMANISTAN_ARAZISINDAKI_TARIXI_AHAMIYYATLI_AZARBAYCAN_MADANIYYAT_ABIDALARINI_QORUMAGA_CHAGIRIR-342278

diqqətini həmişə özünə cəlb etmələri unudulmamalıdır. Belə ki, qədim mədəniyyət sərvətlərinin kriminal biznesi ilə məşğul olma hələ də "gəlirli" sahələrdən sayılır. Mədəniyyət sərvətlərinin talanması cinayətlərinin, bir qayda olaraq, mütəşəkkil cinayətkar qruplar tərəfindən həyata keçirildiyi də nəzərə alınmalıdır.

Mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlər həm də dövlətin milli təhlükəsizliyinə qəsd edir. Belə ki, "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli qanununun 7.11.2-ci maddəsində mədəniyyət və mənəviyyat sahəsində milli təhlükəsizliyə təhdid yaradan əməllər kimi Azərbaycanın tarixinə, dilinə, mədəni irsi və mənəvi sərvətlərinə qəsd edilməsi, onların xarici və daxili təzyiqlərə məruz qalması da təsbit olunmuşdur.

Azərbaycan Respublikasının qüvvədə olan 1999-cu il Cinayət Məcəlləsində mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə görə bilavasitə dörd normada məsuliyyət nəzərdə tutulmuşdur. Bunlar CM-nin 183, 206.2, 207 və 246-cı maddələridir. CM-nin ayrı-ayrı fəsillərində təsbit olunmuş bu cinayətlərin qəsd obyekti, obyektiv cəhəti və digər mühüm xüsusiyyətləri fərqli olsa da, onlar qəsd predmetinə görə bir-birinə yaxındırlar. Lakin ədəbiyyatda düzgün qeyd olunduğu kimi, bəhs edilən cinayətlərin predmeti kimi çıxış edən «mədəniyyət sərvətləri»nin anlayışının qanunvericilik qaydasında müəyyən edilməməsi bu cinayətlərin tövsifi zamanı bəzi çətinliklərin yaranmasına səbəb olur. Qanunvericiliyin çatışmazlıqlarından biri də qanunda mədəniyyət sərvətlərini hədə-qorxu ilə tələb etməyə və ehtiyatsızlıqdan mədəniyyət sərvətlərini məhv etmə və ya korlamaya görə bilavasitə məsuliyyət nəzərdə tutan cinayət-hüquqi normalarının olmamasıdır.[1]

Mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin xüsusiyyətləri və latent xarakteri bu növ cinayətkarlıqla bağlı rəsmi göstəricilərin səviyyəsinin, adətən, aşağı olmasını şərtləndirir. Lakin nəzərə almaq lazımdır ki, həmin cinayətlər

---

[1] Афонин И.Б. Уголовно-правовая охрана культурных ценностей: Дисс. … канд. юр. наук. М., 2005. с. 4.

olduqca “incə” üsul və metodlarla və bir qayda olaraq mütəşəkkil və ya transmilli cinayətkar qruplar tərəfindən törədilir ki, bu da onun yüksək ictimai təhlükəliliyini əks etdirir. Mədəniyyət sərvətlərinə qarşı törədilən cinayətlər XX əsrin 60-cı illərindən başlayaraq dünyada daha geniş vüsət almağa başlamışdır. Beynəlxalq cinayət polisi təşkilatının (İnterpolun) məlumatına görə hər gün dünyada müxtəlif xalqlara və dövrlərə aid olan 450-500 rəsm, heykəltəraşlıq əsərləri, dini ayin əşyaları, arxeoloji tapıntılar və digər mədəniyyət sərvətləri oğurlanır. Mədəniyyət sərvətlərinə edilən qəsdlərin vurduğu illik zərər bir neçə milyard dollara çatır. Yaranmış vəziyyət ona gətirib çıxarmışdır ki, İnterpol incəsənət əsərlərinin talanması və yenidən satılmasını rəsmi olaraq beynəlxalq səciyyəli cinayət kimi elan etmişdir.[1]

Qeyd edilənlər məcmu halında tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

**Tədqiqat mövzusunun öyrənilmə vəziyyəti.** Mədəniyyət sərvətləri əleyhinə edilən cinayətlərlə bağlı problemlər kriminalist alimlər tərəfindən müəyyən səviyyədə tədqiq edilmişdir. MDB ölkələri arasında bu sahədə tədqiqatlar, xüsusən, Rusiyada Federasiyasında intensiv olmuşdur. Belə ki, V.V.Bratanov 2001-ci ildə Nijnıy Novqorod şəhərində “Хищение культурных ценностей: Уголовно-правовые и криминологические аспекты”, O.В.Давлетшина 2003-cü ildə Rostov şəhərində “Уголовно-правовая охрана культурных ценностей в Российской Федерации”, İ.B.Afonin 2005-ci ildə Moskva şəhərində «Уголовно-правовая охрана культурных ценностей», Y.Y.Tkaçyov 2007-ci ildə Krasnodar şəhərində “Хищение предметов, имеющих особую ценность”, L.R.Klebanov 2012-ci ildə Moskva şəhərində “Уголовно-правовая охрана культурных ценностей” mövzularında dissertasiya işlərini müdafiə etmişlər. Qeyd olunan cinayətlərin bəzi nəzəri və təcrübi cəhətləri digər müəlliflər tərəfindən də araşdırılmışdır. Azərbaycan Respublikasında kriminalist alimlər bu problemi yalnız dərslik, dərs vəsaiti, kommentariya və tək-tük elmi məqalələr çərçivəsində

---

[1] Панов В.П. Сотрудничество государств в борьбе с международными уголовными преступлениями. М.: Юрист, 1993, с. 14.

nəzərdən keçirmişlər. Təəssüflə qeyd edilməlidir ki, göstərilən cinayətlərin ölkəmizə və xalqımıza vurduğu maddi və mənəvi ziyanın həcmi olduqca böyük olsa da, respublikamızda mədəniyyət sərvətləri əleyhinə edilən cinayətlər heç bir zaman kompleks və monoqrafik tədqiqatın predmeti olmamışdır.

**Tədqiqatın obyektini** mədəniyyət sərvətlərinin cinayət-hüquqi mühafizəsi sahəsində mövcud ictimai münasibətlər, **predmetini isə** Azərbaycan Respublikasının qüvvədən düşmüş və hazırda qüvvədə olan cinayət qanunları, bəzi xarici ölkələrin cinayət qanunvericilik aktları, mədəniyyət sərvətlərinin mühafizəsi ilə bağlı beynəlxalq-hüquqi sənədlər, qeyd olunan cinayətlərin vəziyyəti ilə bağlı statistik məlumatlar, məhkəmə təcrübəsinin materialları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi mədəniyyət sərvətlərinə qarşi törədilmiş əməllərlə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin kompleks və monoqrafik səviyyədə araşdırılması, bu problemin nəzəri və təcrübi cəhətlərinin tədqiq edilməsi, Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin mədəniyyət sərvətləri əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən normalarının, məhkəmə təcrübəsinin təkmilləşdirilməsi istiqamətində əsaslandırılmış təkliflərin verilməsindən ibarətdir.

Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- mədəniyyət sərvətlərinə qarşı törədilmiş ictimai təhlükəli əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin inkişaf tarixinin nəzərdən keçirilməsi;
- mədəniyyət sərvətlərinin anlayışının cinayət-hüquqi aspekdən araşdırılması;
- mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin obyektiv və subyektiv əlamətlərinin tədqiqi;
- mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin tövsifedici əlamətlərinin araşdırılması;
- mədəniyyət sərvətlərindən istifadəni və onların mühafizəsini tənzimləyən beynəlxalq hüquqi aktların nəzərdən keçirilməsi;
- bəzi xarici ölkələrin cinayət qanunvericiliyində mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə məsuliyyətin həlli məsələlərinin öyrənilməsi;

- mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin kriminoloji problemlərinin araşdırılması, bu növ cinayətkarlığın ümumi kriminoloji xarakteristikasının müəyyən edilməsi;
- mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin profilaktikası məsələlərinin tədqiq edilməsi;
- Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərlə bağlı normalarının və bu normaların praktikada tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üzrə tövsiyələrin hazırlanması.

**Tədqiqatın metodologiyası və metodları.** Tədqiqatın metodoloji əsasını hadisə və proseslərin ümumi inkişaf qanunauyğunluqlarını dərk etməyə imkan verən dialektik təlimin müddəaları, metodlarını isə müqayisəli hüquq, tarixi-hüquqi, fəlsəfi, məntiqi, sistemli yanaşma, ümumiləşdirmə, statistik təhlil və sair təşkil etmişdir.

**Tədqiqatın nəzəri bazasını** cinayət hüququ, beynəlxalq hüquq, kriminologiya və digər hüquq sahələrində mədəniyyət sərvətlərinə qarşı törədilmiş ictimai təhlükəli əməllərin tədqiqinə həsr edilmiş əsərlər təşkil etmişdir. Müəllifin tədqiqatı üçün V.N.Kudryavsevin, Q.N.Borzenkovun, N.A.Lopaşenkonun, N.F.Kuznetsovanın, A.V.Naumovun, A.N.Krasikovun, İ.B.Afoninin, F.Y.Səməndərovun, İ.M.Rəhimovun, X.C.Ələkbərovun, B.S.Zahidovun, M.B.Əhmədovun, Ç.F.Mustafayevin, H.S.Qurbanovun, İ.V.Vəliyevin, Ş.T.Səmədovanın və başqalarının əsərləri faydalı olmuşdur.

**Tədqiqatın normativ bazasını** Azərbaycan Respublikasının Konstitusiyası, mədəniyyət sərvətlərindən istifadəni və onların mühafizəsini nəzərdə tutan beynəlxalq hüquqi aktlar (YUNESKO-nun 1954-cü il Silahlı münaqişələr zamanı mədəniyyət sərvətlərinin mühafizəsi haqqında Haaqa Konvensiyası, 1970-ci il Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında Konvensiya və s.), Azərbaycan Respublikasının əvvəlki və hazırda qüvvədə olan cinayət qanunları, ayrı-ayrı xarici ölkələrin qüvvədə olan cinayət qanunları təşkil edir.

**Tədqiqatın empirik bazası isə** Azərbaycan Respublikası məhkəmələrində mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə baxılan cinayət işlərindən, Azərbaycan Respublikası DİN-in müəyyən illər üzrə respublikada mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə dair statistik göstəricilərindən ibarətdir.

**Tədqiqatın elmi yeniliyini** Azərbaycan Respublikasında mədəniyyət sərvətlərinə qarşı törədilmiş ictimai təhlükəli əməllər ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemlərinin ilk dəfə olaraq monoqrafik və kompleks səviyyədə tədqiq edilməsi, milli cinayət qanunvericiliyi tarixində bu növ əməllərə görə məsuliyyətin genezisi və həlli vəziyyətinin öyrənilməsi, bu növ cinayətlərə görə məsuliyyət nəzərdə tutan normaların elmi-nəzəri və təcrubi cəhətdən araşdırılması, onların praktikada tətbiqi təcrübəsinin öyrənilməsi, həmin əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyi normalarının təkmilləşdirilməsi və göstərilən cinayətlərin profilaktikası üzrə tövsiyələrin işlənib hazırlanmasında ifadə olunur.

İşdə həmçinin xarici ölkələrin cinayət qanunvericiliyində mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə məsuliyyət müəyyən edən normalar müqayisəli şəkildə tədqiq edilmişdir.

**Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:**

1. Azərbaycan Respublikasında mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin inkişaf tarixi nəzərdən keçirilir və müəyyən edilir ki, Azərbaycan SSR-in ilk 1922 və 1927-ci il Cinayət Məcəllələrində mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə (mədəniyyət sərvətlərinin qaçaqmalçılığı, uçotdan gizlədilməsi və s.) görə məsuliyyət müəyyən edən norma mövcud olsa da, 1960-cı il CM-nin ilk redaksiyasında buna dair heç bir normada məsuliyyət nəzərdə tutulmamışdır. Yalnız Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 31 avqust 1967-ci il tarixli fərmanı ilə Azərbaycan SSR-in 1960-cı il CM-nə dövlət tərəfindən mühafizə edilən tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə, dağıtma və ya korlamaya görə məsuliyyət müəyyən edən 231-1-ci maddə daxil edilmişdir. Azərbaycan Respublikasının qanunvericiliyi tarixində ilk dəfə olaraq qüvvədə olan

1999-cu il CM-nin ayrı-ayrı normalarında qəsd obyekti əsasında mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə məsuliyyət nəzərdə tutulmuş, bu növ əməllərin ictimai təhlükəliliyi və xarakteri əsasında məsuliyyətin müəyyən differensiasiyası aparılmışdır.

**2**. Azərbaycan Respublikası CM-nin 183, 206.2, 207 və 246-cı maddələrində mahiyyət etibarı ilə mədəniyyət sərvətlərinin cinayət-hüquqi mühafizəsi nəzərdə tutulsa da, həmin maddələrdə cinayətin predmetləri müxtəlif adlarla ifadə edilmişdir: xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyalar və ya sənədlər (maddə 183); mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar (maddə 206.2); Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyalar (maddə 207); tarix və mədəniyyət abidələri (maddə 246). Bu, mədəniyyət sərvətlərinin cinayət-hüquqi mühafizəsində və bu növ cinayətlərin tövsifi zamanı müəyyən çətinliklər yaradır. Ona görə də qeyd edilən normalarda cinayətin predmetlərinin “mədəniyyət sərvətləri” termini altında unifikasiya olunması məqsədəuyğun sayılır və Azərbaycan Respublikası CM-nin 183-cü maddəsində aşağıdakı məzmunda “Qeyd” hissəsinin yaradılması təklif edilir: “Mədəniyyət sərvətləri dedikdə, insan fəaliyyətinin nəticəsi olmaqla unikal xüsusiyyətlərə, yüksək maddi və mənəvi dəyərə malik olan, tarixi, elmi, ədəbi-bədii, mədəni, texniki və sair keyfiyyətlərinə görə cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət kəsb edən maddi aləmin predmet və obyektləri başa düşülür”.

**3**. Cinayət hüquq nəzəriyyəsində talamanın üsullarına oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, mənimsəmə, israf etmə aid edilir, hədə-qorxu ilə tələb etmə talamanın üsulu sayılmır. CM-nin 183-cü maddəsində xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri üsulundan asılı olmayaraq talama üstündə məsuliyyət nəzərdə tutulmuşdur, xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etməyə görə isə məsuliyyət müəyyən edilməmişdir. Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 227, 232, 235-ci maddələrində tətbiq edilmiş üsuldan istifadə etməklə CM-nin 183-cü maddəsində həm də xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etməyə görə məsuliyyətin müəyyən edilməsi

məqsədəuyğun sayılır və həmin maddənin adının və dispozisiyasının aşağıdakı redaksiyada verilməsi təklif edilir:

"Maddə 183. Mədəniyyət sərvətlərini talama və ya hədə-qorxu ilə tələb etmə.

Mədəniyyət sərvətlərini üsulundan asılı olmayaraq talama və ya hədə-qorxu ilə tələb etmə"

**4**. Azərbaycan Respublikası CM-nin 246-cı maddəsində nəzərdə tutulan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayəti qəsdən (həm birbaşa, həm də dolayı qəsd ilə) törədilə bilər. Lakin bu əməlin ehtiyatsızlıqdan da törədilməsi mümkündür və belə hallara praktikada çox rast gəlinir. Azərbaycan Respublikasının qüvvədə olan CM-də isə həmin hallara görə məsuliyyət müəyyən edilməmişdir. CM-nin 246-cı maddəsində nəzərdə tutulmuş sanksiyanın da xeyli dərəcədə liberal olub, əməlin ağırlığına uyğun olmaması müəyyən edilir. Odur ki, CM-nin 246-cı maddəsinin aşağıdakı məzmunda yeni redaksiya layihəsi təklif edilir:

"Maddə 246. Mədəniyyət sərvətlərini qəsdən və ya ehtiyatsızlıqdan məhv etmə və ya korlama

Dövlət tərəfindən mühafizə olunan mədəniyyət sərvətlərini qəsdən məhv etmə və ya korlama –

min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

Dövlət tərəfindən mühafizə olunan mədəniyyət sərvətlərini ehtiyatsızlıqdan məhv etmə və ya korlama -

iki yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır".

**5**. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu tərəfindən mədəniyyət sərvətlərinin cinayət-hüquqi mühafizəsini nəzərdə tutan normaların tətbiqi, müvafiq izahların verilməsi üzrə qərarın qəbul edilməsi məqsədəuyğun sayılır.

**6**. Azərbaycan Respublikası mədəniyyət sərvətlərinə qarşı törədilən ciunayətlərdən bilavasitə əziyyət çəkən Azərbaycan dövləti və xalqıdır. Ermənistan Respublikasının təcavüzü nəticəsində ölkəmizin mədəni sərvətlərinə xüsusən mühüm ziyan vurulmuşdur. Odur ki, Azərbaycan Respublikasının CM-də mədəniyyət sərvətlərinə qəsd edən əməllərə görə məsuliyyət nəzərdə tutan normaların işləkliyinin təmin edilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi vacibdir.

**7**. Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin üç istiqaməti fərqləndirilir:

1) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi gedişində Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazisinin iyirmi faizinin işğal edilməsi nəticəsində həmin ərazilərdə olan bütün mədəniyyət sərvətlərinin kütləvi şəkildə talanması, erməniləşdirilməsi, yaxud məhv edilməsi. Ermənilər bu əməlləri həmçinin əzəli Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində qalmış mədəniyyət sərvətlərimizə qarşı törətmişlər;

2) Azərbaycan Respublikasının muzey, kitabxana, arxiv, məscid, kilsə, arxeoloji qazıntı yerlərindən mədəniyyət sərvətlərinin talanması, onların məhv edilməsi və ya korlanması, qanunsuz olaraq xaricə aparılması;

3) müvafiq vəzifəli şəxslərin qulluq mövqelərindən sui-istifadə etmələri və ya vəzifələrinin icrasına laqeyd münasibət bəsləmələri nəticəsində mədəniyyət sərvətlərimizin məhv olması və ya dağılması.

**8**. Mədəniyyət sərvətlərinə qarşı cinayətləri doğuran səbəblərə aşağıdakı amillər aid edilir:

- mədəni sərvətlər ilə bağlı fəaliyyət göstərən dövlət qurumlarının, o cümlədən onların əməkdaşlarının maliyyə təminatlarının lazımi səviyyədə olmaması;
- mədəniyyət sərvətlərinin uçotunun qaydasında olmaması, onların tam şəkildə siyahıya alınmaması;
- mədəniyyət sərvətlərinin təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməməsi;
- mədəni sərvətlərin əhəmiyyəti ilə bağlı təbliğat işlərinin zəif olması;

-xarici ölkələrdə mədəniyyət sərvətlərinin qiymətlərinin ölkə daxilində olan qiymətlər ilə müqayisəyə gəlməyəcək dərəcədə yüksək olması.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Dissertasiyada formulə edilmiş müddəa və nəticələrdən, verilən təkliflərdən Azərbaycan Respublikasının cinayət qanunvericiliyinin mədəniyyət sərvətləri əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən normaların təkmilləşdirilməsi ilə bağlı qanunyaradıcılığı fəaliyyətində, məhkəmə-istintaq təcrübəsinin optimallaşdırılması prosesində istifadə edilə bilər.

Tədqiqat işi mədəniyyət sərvətlərinə qarşi törədilmiş əməllər ilə mübarizənin cinayət-hüquqi və kriminoloji problemləri aspektində cinayət hüququ və kriminologiya elm sahələrini zənginləşdirəcək, bu barədə elmi-nəzəri biliyi dərinləşdirəcəkdir.

Dissertasiyanın materialından ali hüquq təhsili verən müəssisələrdə cinayət hüququ və kriminologiya fənlərinin tədrisi, dərslik, dərs vəsaiti, cinayət qanunvericiliyi şərhləri, elmi məqalələrin yazılması prosesində istifadə oluna bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti-nin "Cinayət hüququ və kriminologiya" kafedrasında yerinə yetirilmişdir. İşin əsas müddəaları, qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər çap edilmiş məqalələrdə və elmi-praktiki konfransların materiallarında əks etdirilmişdir.

**Dissertasiyanın strukturu** tədqiqatın məqsədi, vəzifələri və metodologiyası ilə şərtlənir. Dissertasiya girişdən, 9 yarımfəsli əhatə edən üç fəsildən, nəticədən və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin giriş hissəsində dissertasiya mövzusunun aktuallığı əsaslandırılır, onun obyekti və predmeti, məqsəd və vəzifələri, metodologiyası, elmi-nəzəri, normativ və empirik əsasları, elmi yeniliyi, nəzəri və təcrubi əhəmiyyəti müəyyən olunur, müdafiəyə çıxarılan müddəalar təqdim olunur, tədqiqatın nəticələrinin aprobasiyası haqqında məlumat verilir.

**Birinci fəsil “Mədəniyyət sərvətlərinə qarşi törədilmiş əməllərin cinayət-hüquqi səciyyəsi və tövsifedici əlamətləri” adlanır və** beş yarımfəsildən ibarətdir. **Birinci yarımfəsil** mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərə görə məsuliyyət nəzərdə tutan cinayət qanunvericiliyinin inkişaf tarixinə həsr olunmuşdur. Tarixən mədəniyyət sərvətlərinə edilən qəsdlərə görə cinayət məsuliyyəti xüsusi cinayət-hüquqi normalarda deyil, mülkiyyət əleyhinə edilən cinayətlərə görə məsuliyyət müəyyən edən ümumi normalarda nəzərdə tutulmuşdur. Rusiya İmperiyasının 1845-ci ildə qəbul edilmiş və müəyyən dəyişikliklərlə Azərbaycanda 1920-ci ilədək qüvvədə olmuş Cinayət və islah cəzaları Qanunnaməsində mədəniyyət sərvəti sayılan kilsə əşyalarını, habelə kilsə pulunu talama müqəddəs şeyləri təhqir etmə kimi tövsif edilmişdir.

Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra bütün sərvətlər kimi mədəniyyət sərvətləri də milliləşdirilmiş və sosialist dövlətinin mülkiyyəti elan edilmişdir. Azərbaycan SSR-in 1922-ci il dekabrın 9-da qəbul edilmiş və 1923-cü il fevralın 1-dən qüvvəyə minmiş ilk CM-nin qaçaqmalçılığa görə məsuliyyət nəzərdə tutan 97-ci maddəsində malların xaricdən ölkəyə gətirilməsi və ya xaricə aparılması haqqında qaydaların pozulmasına görə də məsuliyyət müəyyən olunmuşdu. Bu Məcəllədə mədəniyyət sərvətlərinə edilən qəsdlərə görə cinayət məsuliyyəti müəyyən edən digər norma 102-ci maddə idi. Həmin maddədə qeydiyyata, uçota alınmalı və ya dövlət saxlanc yerlərinə verilməli olan qədimi və incəsənət kolleksiyaları və abidələrin gizlədilməsinə görə cinayət məsuliyyəti nəzərdə tutulmuşdu. Azərbaycan SSR-in 1927-ci il dekabrın 3-də qəbul edilmiş və 1928-ci il yanvarın 15-dən qüvvəyə minmiş ikinci Cinayət Məcəlləsi mədəniyyət sərvətlərinə qarşı edilən cinayətlərlə bağlı qanunvericiliyə elə bir yenilik gətirmədi. 1922 və 1927-ci il Cinayət Məcəllələrindən fərqli olaraq 1960-cı il CM-də mədəniyyət sərvətlərinin mühafizəsi ilə bağlı heç bir norma yox idi. Yalnız Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 31 avqust 1967-ci il tarixli fərmanı ilə 1960-cı il CM-nə dövlət tərəfindən mühafizə edilən tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə, dağıtma və ya korlamaya görə məsuliyyət nəzərdə tutan 231-1-ci maddə daxil edildi. Azərbaycan Respublikasının

7 aprel 1998-ci il tarixli qanunu ilə CM-nin 71-ci maddəsinin ikinci hissəsində mədəni, tarixi və ya elmi sərvət təşkil edən əşyaların qaçaqmalçılığına görə cinayət məsuliyyəti müəyyən edildi. Bu əmələ görə əmlakı müsadirə edilməklə üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdu. CM-nin 7-1-ci maddəsinə əsasən mədəni, tarixi və ya elmi sərvət təşkil edən əşyaların qaçaqmalçılığı ağır cinayət kateqoriyasına aid edilmişdi. Azərbaycan Respublikasının 28 aprel 1998-ci il tarixli qanunu ilə CM-nə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması məcburi olan Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının mədəni, tarixi və arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasına qaytarılmamasına görə məsuliyyət müəyyən edən yeni 150-16-ci maddə daxil edildi. Bu əmələ görə əmlakı müsadirə edilməklə üç ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulmuşdu. 1960-cı il CM-də xüsusi dəyəri olan əşyaları talamaya görə məsuliyyət müəyyən edən norma yox idi. Azərbaycan Respublikasının 1999-cu il dekabrın 30-da qəbul edilmiş və 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş CM-də mədəniyyət sərvətlərinə edilən qəsdlərə görə məsuliyyət dörd maddədə müəyyən edilmişdir. Bunlara CM-nin 183, 206.2, 207 və 246-cı maddələri aiddir.

**İkinci yarımfəsil** mədəniyyət sərvətlərinin anlayışına həsr olunmuşdur. Mədəniyyət sərvətlərinin anlayışı ilk dəfə 14 may 1954-cü il Silahlı münaqişələr zamanı mədəniyyət sərvətlərinin mühafizəsi haqqında Haaqa Konvensiyasında müəyyən edilmişdir. İnsan fəaliyyətinin məhsulu olan istənilən maddi məhsul mədəniyyət sərvəti hesab olunmur, bir qayda olaraq, insan fəaliyyətinin xüsusi dəyərə malik məhsulları belə sərvət hesab edilir. Azərbaycan Respublikası CM-də mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə görə məsuliyyət müəyyən edən normalarda cinayətin predmeti olan mədəniyyət sərvətləri müxtəlif adlarla ifadə edilmişdir: xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyalar və ya sənədlər (maddə 183); mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyalar (maddə 206.2); Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyalar (maddə 207); tarix və mədəniyyət abidələri (maddə 246).

Hesab edirik ki, belə pərakəndəlik qeyd edilən cinayətlərin tövsifi prosesində çətinliklər yarada biləcəyindən CM-nin 183, 206.2, 207 və 246-cı maddələrində nəzərdə tutulmuş cinayətlərin predmetlərinin vahid "mədəniyyət sərvətləri" anlayışında birləşdirilməsi və "mədəniyyət sərvətləri"nin qanunvericilik anlayışının müəyyən edilməsi zəruridir. Bu məqsədlə Azərbaycan Respublikası CM-in 183-cü maddəsinin adında "xüsusi dəyəri olan əşyaları", 183.1-ci maddəsində "xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri" sözlərinin "mədəniyyət sərvətlərini" sözləri ilə, 206.2-ci maddəsində "mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların" sözlərinin "mədəniyyət sərvətlərinin" sözləri ilə, 207-ci maddəsində "incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları" sözlərinin "mədəniyyət sərvətlərini" sözləri, 246-cı maddəsində "tarix və mədəniyyət abidələrini" sözlərinin "mədəniyyət sərvətlərini" sözləri ilə əvəz edilməsi təklif edilir. Eyni zamanda CM-nin 183-cü maddəsində aşağıdakı məzmunda "Qeyd" hissəsinin yaradılması təklif olunur: "Mədəniyyət sərvətləri dedikdə, insan fəaliyyətinin nəticəsi olmaqla unikal xüsusiyyətlərə, yüksək maddi və mənəvi dəyərə malik olan, tarixi, elmi, ədəbi-bədii, mədəni, texniki və sair keyfiyyətlərinə görə cəmiyyət və dövlət üçün mühüm əhəmiyyət kəsb edən maddi aləmin predmet və obyektləri başa düşülür".

**Üçüncü yarımfəsildə** mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin obyektiv əlamətləri tədqiq edilir. Mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin cins və növ obyektləri hansı ictimai münasibətlərin predmetinin mədəniyyət sərvətləri olmasından asılıdır. Xüsusi dəyəri olan əşyaları talama, mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı, Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama cinayətlərinin cins obyekti iqtisadi sahədə olan ictimai münasibətlərdir. Bu, göstərilən hər üç cinayətə görə məsuliyyət müəyyən edən normaların CM-nin "İqtisadi sahədə cinayətlər" adlanan IX bölməsində yerləşməsi ilə şərtlənir. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlamaya görə məsuliyyət müəyyən edən norma CM-nin "İctimai təhlükəsizlik və ictimai qayda əleyhinə olan cinayətlər" adlanan X bölməsində

yerləşir. Buna görə həmin cinayətin cins obyektini ictimai təhlükəsizlik və ictimai qaydanın təmin edilməsi ilə bağlı olan ictimai münasibətlər təşkil edir.

Xüsusi dəyəri olan əşyaları talama cinayətinin növ obyekti mülkiyyət münasibətləridir. Mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı cinayətlərinin növ obyektini iqtisadi fəaliyyət sahəsində olan ictimai münasibətlər təşkil edir. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayətinə görə məsuliyyət müəyyən edən norma "İctimai mənəviyyat əleyhinə olan cinayətlər" fəslində yerləşir və onun növ obyekti ictimai mənəviyyatla bağlı olan ictimai münasibətlərdir.

Xüsusi dəyəri olan əşyaları talama cinayətinin əsas bilavasitə obyekti mülkiyyət münasibətləri, əlavə zəruri obyekti isə həmin əşyaların qorunub saxlanması və mühafizəsinin təmin edilməsinə yönələn ictimai münasibətlərdir. Xüsusi dəyəri olan əşyaları talama zorakı üsullarla həyata keçirildikdə cinayətin əlavə obyekti qismində sağlamlıq da çıxış edəcəkdir. Mədəniyyət sərvətlərinin qaçaqmalçılığı cinayətinin bilavasitə obyektini həmin sərvətlərin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsinin qanunla müəyyən edilmiş xüsusi qaydaları təşkil edir. Cinayət gömrük nəzarətini həyata keçirən şəxsə zor tətbiq etməklə törədildikdə sağlamlıq əlavə obyekt qismində çıxış edir. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayətinin bilavasitə obyektini ictimai mənəviyyat, habelə həmin abidələrin qorunub saxlanmasını təmin edən ictimai qaydalar təşkil edir. Cinayətin predmeti isə dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələridir.

Xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etmə həmin əşyaları talamadan heç də az təhlükəli deyildir. Buna baxmayaraq CM-də xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etməyə görə məsuliyyət müəyyən edilməmişdir. Halbuki CM-nin 227-ci maddəsində radioaktiv materialları talama və ya hədə-qorxu ilə tələb etməyə görə, 232-ci maddəsində odlu slahı, döyüş sursatını, partlayıcı maddələri və qurğuları talama və ya hədə-qorxu ilə tələb etməyə görə, 232-ci maddəsində narkotik vasitələri, psixotrop maddələri və ya onların prekursorlarını talama və ya hədə-qorxu ilə tələb etməyə görə məsuliyyət müəyyən

edilmişdir. Ona görə də bəzi müəlliflər (B.İ.Afonin, E.V.Medvedyev) xüsusi dəyəri olan əşyaları talama cinayətinə görə məsuliyyət nəzərdə tutan normada bu cinayətin predmetlərinin hədə-qorxu ilə tələb edilməsinə görə də məsuliyyətin müəyyən edilməsini təklif edirlər. MDB ölkələri üçün hazırlanmış Model Cinayət Məcəlləsində eyni əmələ görə məsuliyyət müəyyən edən 248-ci maddədə xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etmə tövsifedici əlamət kimi nəzərdə tutulmuşdur. Qeyd edilənlərə əsaslanaraq Azərbaycan Respublikası CM-nin 183-cü maddəsində xüsusi dəyəri olan əşyaları hədə-qorxu ilə tələb etməyə görə də məsuliyyətin müəyyən edilməsi məqsədəuyğun sayılır və CM-nin 183-cü maddəsinin adının və dispozisiyasının, "mədəniyyət sərvətləri" ifadəsinin daxil edilməsi barədə təklif nəzərə alınmaqla, aşağıdakı redaksiyada verilməsi təklif edilir:

"Maddə 183. Mədəniyyət sərvətlərini talama və ya hədə-qorxu ilə tələb etmə.

Mədəniyyət sərvətlərini üsulundan asılı olmayaraq talama və ya hədə-qorxu ilə tələb etmə -"

Xüsusi dəyəri olan əşyaları talama həm maddi, həm də formal tərkibli cinayət sayılır. Talama oğurluq, soyğunçuluq, dələduzluq, mənimsəmə və ya israf etmə yolu ilə törədildikdə cinayət xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyalar və ya sənədlər götürüldüyü və onların barəsində sərəncam vermək imkanı yarandığı andan, quldurluq yolu ilə törədildikdə isə basqın anından başa çatmış olur. Mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı maddi tərkibli deyil, formal tərkibli cinayətdir və göstərilən əşyalar gömrük sərhədindən və ya ondan kənar sərhəddən faktiki olaraq keçirildiyi andan başa çatmış sayılır. Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama cinayətinin (207-ci maddə) obyektiv cəhəti Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaların Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması vəzifəsinin yerinə yetirilməməsindən, həmin əşyaları

müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasına qaytarılmamasından ibarətdir. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlamanın (CM-nin 246-cı maddəsi) obyektiv cəhəti dövlət tərəfindən mühafizə olunan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlamada ifadə olunur. Məhv etmə dedikdə, qeyd olunan obyektləri dağıtma, yandırma, partlatma və ya digər mexaniki təsir üsulu ilə öz dəyərini həmişəlik itirən və bundan sonra təyinatı üzrə istifadə edilməsi mümkün olmayan tam yararsız vəziyyətə salma başa düşülür. Korlama dedikdə, dövlət tərəfindən mühafizə edilən adları çəkilən predmetlərin bütövlüyünün, yaxud digər xüsusiyyətlərinin qismən itirilməsinə səbəb olan, onların bərpa edilmədən təyinatı üzrə istifadə edilməsi qeyri-mümkün olan vəziyyətə salınması başa düşülür.

**Dördüncü yarımfəsildə** mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin subyektiv əlamətləri təhlil olunur. CM-nin 20-ci maddəsinə əsasən xüsusi tarixi, elmi, ədəbi və ya mədəni dəyəri olan əşyaları və ya sənədləri talama cinayətinin subyekti cinayət törədilən zaman on altı yaşı tamam olmuş anlaqlı fiziki şəxs ola bilər. CM-nin 206.2-ci maddəsində nəzərdə tutulmuş mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı cinayətinin subyekti də cinayət törədilən zaman on altı yaşı tamam olmuş anlaqlı fiziki şəxs ola bilər. CM-nin 206.3.3-cü maddəsində nəzərdə tutulan mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı cinayətinin subyekti xüsusidir. Burada vəzifəli şəxs öz qulluq mövqeyindən istifadə etməklə mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı cinayətini törədir. Belə şəxslərə xidməti vəzifəsinə gömrük sənədləşməsini və nəzarətini həyata keçirmək səlahiyyəti daxil olan gömrük orqanlarının işçisi, habelə göstərilən əşyaların gömrük sərhədindən qanunsuz keçirilməsində öz vəzifə səlahiyyətlərindən sui-istifadə edən digər vəzifəli şəxslər aid ola bilər. CM-nin 207-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama cinayətinin subyekti on altı yaşı tamam olmuş, anlaqlı, fiziki şəxs hesab edilir. Qeyd edək ki, cinayət hüquq nəzəriyyəsində qeyd edilən cinayətin subyekti ilə bağlı vahid mövqe yoxdur. Bəzi

kriminalist alimlər hesab edirlər ki, bu cinayətin subyekti yalnız xüsusidir. Hesab edilir ki, burada cinayəti törətmiş şəxsin statusu dəqiq müəyyən edilmişdir. Bu şəxslər bir qayda olaraq müəyyən hüquqi sənədlər (məsələn, müqavilə) əsasında müvəqqəti olaraq xarici ölkələrə aparılmış mədəniyyət sərvətlərini Azərbaycan Respublikası ərazisinə qaytarılmasına məsul olan şəxslər olurlar. Odur ki, həmin şəxslər mədəniyyət sərvətlərinin mülkiyyətçisi və ya onun səlahiyyət verdiyi şəxs, yaxud göstərilən əşyaları Azərbaycan Respublikası ərazisindən müvəqqəti xaricə aparmağa səlahiyyətli olan təşkilatın vəzifəli şəxsi və ya nümayəndəsi ola bilər. CM-nin 207-ci maddəsinin dispozisiyası Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq qaytarılması məcburi olan Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarılmış Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi və arxeoloji sərvəti olan əşyaların müəyyən edilmiş müddətdə Azərbaycan Respublikasına qaytarmama məzmununda müəyyən edilmişdir. Deməli, cinayətin subyekti üzərinə maddədə qeyd edilən əşyaları xaricdən qaytarmaq vəzifəsi qoyulmuş şəxs ola bilər ki, bu da həmin cinayətin subyektinin xüsusi əlamətə malik olmasını müəyyən edir. CM-nin 246-cı maddəsində nəzərdə tutulmuş tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayətinin subyekti on altı yaşı tamam olmuş, anlaqlı, fiziki şəxs sayılır. Tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayətinin hərəkətsizlik formasında da törədilməsini mümkün hesab edən müəlliflərə görə bu cinayətin subyekti xüsusi də ola bilər. Həmin şəxslərə tarix və mədəniyyət abidələrinin qorunması və saxlanması vəzifəsi həvalə edilmiş vəzifəli şəxslər, habelə həmin sərvətlərin sahibləri aid edilə bilər.

CM-nin 183-cü maddəsində nəzərdə tutulmuş xüsusi dəyəri olan əşyaları talama cinayəti subyektiv cəhətdən yalnız birbaşa qəsdlə törədilir. CM-nin 206.2-ci maddəsində nəzərdə tutulmuş mədəni, tarixi və ya arxeoloji sərvət olan əşyaların qaçaqmalçılığı cinayəti təqsirin birbaşa qəsd forması ilə törədilir. CM-nin 207-ci maddəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının və xarici ölkələrin incəsənət, tarixi, arxeoloji sərvəti olan əşyaları Azərbaycan Respublikasına qaytarmama cinayəti də təqsirin birbaşa qəsd forması ilə səciyyələnir. CM-nin 246-

cı maddəsində nəzərdə tutulan tarix və mədəniyyət abidələrini qəsdən məhv etmə və ya korlama cinayəti qəsdən (həm birbaşa, həm də dolayı qəsd ilə) törədilə bilər. Lakin bu əməlin ehtiyatsızlıqdan da törədilməsi mümkündür və belə hallara praktikada rast gəlinir. Azərbaycan Respublikasının qüvvədə olan CM-də isə həmin hallara görə cinayət məsuliyyəti müəyyən edilməmişdir. Azərbaycan Respublikasının qüvvədə olan CM-nin 246-cı maddəsində müəyyən olunmuş sanksiya da xeyli dərəcədə liberal olub, əməlin ağırlığına uyğun deyildir. Ona görə də CM-nin 246-cı maddəsinin aşağıdakı məzmunda yeni redaksiya layihəsi təklif edilir:

“Maddə 246. Mədəniyyət sərvətlərini qəsdən və ya ehtiyatsızlıqdan məhv etmə və ya korlama

Dövlət tərəfindən mühafizə olunan mədəniyyət sərvətlərini qəsdən məhv etmə və ya korlama –

min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır

Dövlət tərəfindən mühafizə olunan mədəniyyət sərvətlərini ehtiyatsızlıqdan məhv etmə və ya korlama -

iki yüz manatdan min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

**Sonuncu yarımfəsildə** mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin tövsifedici əlamətləri araşdırılır.

**Dissertasiyanın II fəsli “Xarici ölkələrin cinayət qanunvericiliyi üzrə mədəniyyət sərvətlərinə qarşi törədilmiş cinayətlərə görə məsuliyyət məsələləri və onunla mübarizənin beynəlxalq-hüquqi xüsusiyyətləri”** adlanır və iki yarımfəsildən ibarətdir. **Birinci yarımfəsildə** xarici ölkələrin cinayət qanunvericiliyi üzrə mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə görə məsuliyyət məsələləri tədqiq edilir. **II yarımfəsil** mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə mübarizənin beynəlxalq-hüquqi xüsusiyyətlərinə həsr olunmuşdur. Mədəniyyət sərvətlərinə yönəlmiş qəsdlərlə bağlı cinayətlərin qarşısının alınması məqsədilə ayrı-ayrı vaxtlarda müxtəlif beynəlxalq hüquqi aktlar qəbul olunmuşdur ki, onlara, əsasən, aşağıdakılar aiddir:

- 1956-ci ildə qəbul edilmiş İctimai və ya fərdi işlərin aparılması zamanı təhlükəyə məruz qalan mədəniyyət sərvətlərinin müdafiəsi haqqında Tövsiyələr;

- 1963-cü ildə qəbul edilmiş Ümumdünya mədəniyyət və təbiət irsinin mühafizəsi haqqında Konvensiya;

- 1976-cı ildə qəbul edilmiş Tarixi ansamblların qorunması və müasir rolu haqqınla Tövsiyələr;

- 1976-cı ildə qəbul edilmiş Mədəniyyət sərvətlərinin beynəlxalq mübadiləsi haqqında Tövsiyələr;

- 1978-ci ildə qəbul edilmiş Daşınar mədəniyyət sərvətlərinin mühafizəsi haqqında Tövsiyələr.

Tədqiqat işinin sonuncu fəsli "M**ədəniyyət sərvətlərinə qarşi törədilmiş cinayətlər ilə mübarizənin kriminoloji problemləri"** adlanır və iki yarımfəsildən ibarətdir. **Birinci yarımfəsil** mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin ümumi kriminoloji xarakteristikasına, **ikinci yarımfəsil** isə mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin profilaktikası məsələlərinə həsr olunmuşdur.

Azərbaycan Respublikasının mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin üç istiqaməti ayrılır. Birinci istiqamət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi gedişində Ermənistan tərəfindən Azərbaycan Respublikası ərazisinin iyirmi faizinin işğal edilməsi nəticəsində həmin ərazilərdə olan bütün mədəniyyət sərvətlərinin kütləvi şəkildə talanması, erməniləşdirilməsi, yaxud məhv edilməsi ilə bağlıdır. Ermənilər bu əməlləri həmçinin əzəli Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində qalmış mədəniyyət sərvətlərimizə qarşı törətmişlər. İkinci istiqamət Azərbaycan Respublikasının muzey, kitabxana, arxiv, məscid və kilsələr, arxeoloji qazıntı yerlərindən mədəniyyət sərvətlərinin talanması, məhv edilməsi və ya korlanması, qanunsuz olaraq xaricə aparılması ilə bağlıdır. Ücüncü istiqamət müvafiq vəzifəli şəxslərin qulluq mövqelərindən sui-istifadə etmələri və ya vəzifələrinin icrasına laqeyd münasibət bəsləmələri nəticəsində mədəniyyət sərvətlərimizin məhv olması və ya dağılmasıdır.

Mədəniyyət sərvətlərinə qarşı cinayətləri doğuran səbəblərə aşağıdakı amillər aid edilir:

- mədəni sərvətlər ilə bağlı fəaliyyət göstərən dövlət qurumlarının, o cümlədən onların əməkdaşlarının maliyyə təminatlarının lazımi səviyyədə olmaması;

- mədəniyyət sərvətlərinin uçotunun qaydasında olmaması, onların tam şəkildə siyahıya alınmaması;

- mədəniyyət sərvətlərinin təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməməsi;

- mədəni sərvətlərin əhəmiyyəti ilə bağlı təbliğat işlərinin zəif olması;

-xarici ölkələrdə mədəniyyət sərvətlərinin qiymətlərinin ölkə daxilində olan qiymətlər ilə müqayisəyə gəlməyəcək dərəcədə yüksək olması.

Dissertasiya işinin **nəticə** hissəsində tədqiqata yekun vurulur, cinayət hüququnun zənginləşdirilməsinə xidmət edən müddəalar, qanunvericiliyin və məhkəmə təcrübəsinin təkmilləşdirilməsinə yönəlmiş təkliflər ümumiləşdirilmiş şəkildə ifadə olunmuşdur.

Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:

1. Xarici ölkələrin cinayət qanunvericiliyi üzrə mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərə görə məsuliyyətin tənzimlənməsi məsələləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı, «Ədliyyə nəşriyyat evi» MMC-nin mətbəəsi, 2011, № 55. s. 32-37.

2. Azərbaycan Respublikası cinayət qanunvericiliyinin mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərlə bağlı normaların təkmilləşdirlməsinin bəzi məsələləri / Azərbaycan Respublikası Təhsil Nazirliyinin doktorantların və gənc tədqiqatçıların 16-cı respublika elmi konfransının materialları. I hissə. Bakı, 2012, s. 416-418.

3. Mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərlə bağlı Azərbaycan Respublikası cinayət qanunvericiliyinin inkişaf tarixi haqqında / Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bakı Dövlət Universitetinin birgə keçirdiyi ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş “Dövlət və hüquq quruculuğunun aktual problemləri” mövzusunda 12-ci

respublika elmi-praktik konfransın materialları. Bakı, (10-11 May 2012-ci il), s. 190-192.

4. Mədəniyyət sərvətlərinin anlayışı // Azərbaycan MEA-sı Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. Elmi Əsərlər. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2012-ci il, № 1 (18), s. 352-355.

5. Mədəniyyət sərvətlərinin beynəlxalq-hüquqi mühafizəsi məsələləri / "Azərbaycan hüquqi dövlət quruculuğu və qanunçuluq – 2020: gələcəyə baxış" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, 2012, s. 194-201.

6. Silahlı münaqişələr zamanı mədəniyyət sərvətlərinin müdafiəsi məsələləri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Bakı, 2013, № 4 (44), s. 225-233.

7. Деякі питания вдосконалення кримінального законодавства Азербайджанскоі республіки та російськоі федераціі у сфері посягань на культурні цінності // Часони С. Киівського університету права. Украінський науково-теретический часопис. 2014/1. s. 331-333.

8. Mədəniyyət sərvətlərinə qarşı törədilmiş əməllərlə bağlı cinayət qanunvericiliyinin inkişaf tarixi / Ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş "Dövlət və hüquq quruculuğunun aktual problemləri" mövzusunda 13-cü respublika elmi-praktik konfransının materialları. Bakı, (6 May 2013-cü il), s. 180-182.

9. Mədəniyyət sərvətlərinə qarşı törədilmiş cinayətlərin tövsifedici əlamətləri // Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Bakı, «Ədliyyə nəşriyyat evi» MMC-nin mətbəəsi, 2014, № 61, s. 172-179.

**АЙНУР ДЖАБРАИЛ гызы УСУБОВА**

**Уголовно-правовые и криминологические проблемы борьбы с деяниями, совершенными против культурных ценностей**

## РЕЗЮМЕ

Диссертационная работа представляет собой первую монографическую работу, посвященную комплексному исследованию уголовно-правовых и криминологических проблем борьбы с деяниями, совершаемыми против культурных ценностей в Азербайджанской Республике.

Диссертационная работа состоит из введения, трех глав, охватывающих девять параграфов, заключения и списка используемой литературы. Во введении диссертации обосновывается актуальность темы исследования, определяется степень научной разработанности данной проблемы, объект и предмет, цель и задачи исследования, его методологические, нормативные и эмпирические основания, научная новизна, положения, выносимые на защиту, сведения о теоретической и практической значимости результатов исследования, а также об апробации результатов исследования.

Первая глава диссертации под названием «Уголовно-правовая характеристика деяний против культурных ценностей и их квалифицирующие признаки» состоит из пяти параграфов. В ней рассматриваются вопросы регламентации в уголовном законодательстве Азербайджанской Республики ответственности за преступления против культурных ценностей, анализируется понятие «культурные ценности», исследуются объективные, субъективные и квалифицирующие признаки этих преступлений.

Во второй главе диссертации, состоящей из двух параграфов, исследуются вопросы ответственности за деяния против культурных ценностей в уголовном законодательстве зарубежных стран и выявляются

особенности международно-правовой борьбы с преступлениями, совершаемыми против культурных ценностей.

Третья глава называется «Криминологические проблемы борьбы с преступлениями, совершаемыми против культурных ценностей» и состоит из двух параграфов, в которых дается общая криминологическая характеристика и рассматриваются меры профилактики преступлений, посягающих на культурные ценности.

В заключительной части диссертации подведены научные итоги, сформулированы предложения и рекомендации, направленные на совершенствование уголовного законодательства и практики его применения.

**USUBOVA AYNUR JABRAIL**

## Criminally-legal and criminological problems of struggle against acts committed by cultural resources

## SUMMARY

The dissertation work is the first monographic work on the integrated study of criminal law and criminological problems of struggle against acts committed by cultural resources in the Azerbaijan Republic.

The dissertation work consists of an introduction, three chapters, covering nine paragraphs, conclusion and bibliography. In the introduction, the thesis substantiates the relevance of the research topic is determined by the degree of scientific elaboration of the problem, object and subject, the purpose and objectives of the study, its methodology, normative and empirical foundations, scientific novelty, the provisions for the defense, information about the theoretical and practical significance of the study results, as well as the validation of research results.

The first chapter of the dissertation work entitled "Criminal legal description of offenses against cultural resources and its qualifying elements" consists of five sections. It investiqated regulation issues in the criminal legislation of the Azerbaijan Republic for crimes against cultural resources, analyzed the concept of "cultural values", investigated objective, subjective and qualifying elements of these crimes.

In the second chapter of the dissertation work consisting of two sections, explores the issue of liability for acts against cultural resources in foreign criminal law and identifies features of the international legal fight against crimes committed by cultural resources .

The third chapter is called "The criminological problems of struggle against crimes committed against cultural property" and consists of two sections, which

provides a general criminological characteristics and prevention measures are considered crimes that infringe on the cultural values.

The final part of the dissertation work summed up the results of the research; formulate proposals and recommendations aimed at improving the criminal law and its practical application.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**

**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**АЙНУР ДЖАБРАИЛ гызы УСУБОВА**

# УГОЛОВНО-ПРАВОВЫЕ И КРИМИНОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ БОРЬБЫ С ДЕЯНИЯМИ, СОВЕРШЕННЫМИ ПРОТИВ КУЛЬТУРНЫХ ЦЕННОСТЕЙ

Специальность: 5611.01 – Уголовное право и криминология;
уголовно-исполнительное право

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по праву

**БАКУ - 2016**